# Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının 13-cü iclası keçirilib

Mayın 15-də Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov və Belarus Respublikası Baş nazirinin müavini İqor Petrişenkonun sədrliyi ilə iqtisadi-ticarət sahəsi üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının 13-cü iclası keçirilib.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda iki ölkənin prezidentləri İlham Əliyev və Aleksandr Lukaşenko arasında fəal siyasi dialoqun Azərbaycan-Belarus əməkdaşlığının bütün spektri üzrə yüksək dinamikanı təmin etdiyi qeyd olunub.

İki ölkə arasında mövcud ticarət dövriyyəsinin ölkələrimizin iqtisadi potensialını tam əks etdirmədiyi və effektiv yolların tapılması ilə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilə biləcəyinə inam ifadə olunub.

Hökumətlərarası komissiyanın Azərbaycanda əlverişli investisiya mühitinin formalaşdırıldığı haqda yekdil fikirdə olduğu vurğulanıb.

Belarus iş adamlarının ölkəmizdə 80 şirkət qeydiyyatdan keçirdikləri və davamlı olaraq Belarus şirkətlərinin diler şəbəkələrinin genişlənməsi haqda faktlar elan edilib.

Eyni zamanda Azərbaycan şirkətlərinin Belarus iqtisadiyyatının inkişafına öz töhfələrini verdiyi qeyd edilib. Belarus investorları Ələt Azad İqtisadi Zonasına dəvət olunublar.

Azərbaycanın Belarusla aqrar-sənaye sektorunda əməkdaşlığın dərinləşdirilməsində maraqlı olduğu diqqətə çatdırılıb.

Baş nazirin müavini Əli Əhmədov ölkəmizin Belarus istehsalı məhsullarının Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə Türkiyəyə daşınması imkanlarını nəzərdən keçirməyə hazır olduğunu deyib.

Kimya sənayesi, bərpa edilən enerji, nəqliyyat-logistika, mədəni-humanitar, elm-təhsil, səhiyyə, əczaçılıq sahəsində əməkdaşlığın dərinləşdirilməsinin perspektivləri müzakirə olunub.

Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov Ümummilli Lider Heydər Əliyevin 100 illik yubiley tədbirlərinin Belarusda keçirilməsinə göstərdikləri dəstəyə görə Belarus Respublikası Baş nazirinin müavininə təşəkkürünü bildirib.

İqor Petrişenko ona və rəhbərlik etdiyi nümayəndə heyətinə göstərilən yüksək diqqətə görə Azərbaycan tərəfinə təşəkkür edib. Belarus hökumətinin Azərbaycanla əməkdaşlığa xüsusi önəm verdiyini və əlaqələrin dərinləşdirilməsi üçün lazımi tədbirlərin görülməsinə hazır olduqlarını vurğulayıb.

Komissiyanın üzvləri Azərbaycanın iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov, Belarusun sənaye nazirinin müavini Aleksandr Yefimov, kənd təsərrüfatı nazirinin müavini İvan Smilqin, Standartlaşma üzrə Komitənin birinci müavini Yelena Morqunova, Azərbaycanın Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini Balarəhim Quliyev və Belarusun ölkəmizdəki səfiri Andrey Rovkov ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin dərinləşdirilməsi və imkanların dəyərləndirilməsi istiqamətində məruzələrlə çıxış ediblər.

Hökumətlərarası komissiyanın növbəti iclasının Belarusda keçirilməsi haqda qərar qəbul olunub.

İclasın sonunda Belarusun İdman və Turizm Nazirliyi ilə Azərbaycanın Gənclər və İdman Nazirliyi arasında 2023-2025-ci illərdə bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığa dair proqram imzalanıb.

Azərbaycan.- 2023.-16 may.- S.3.